Bəxti, uğuru öyrənmək iddiası ilə quş uçuran və ya bu məqsədləri güdən quş uçurana müraciət edən, fala baxan və baxdıran, sehr etməklə məşğul olan və ya ona sehrbazlıq tələbi ilə müraciət edən şəxs

İmran bin Husayndan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Bəxti, uğuru öyrənmək iddiası ilə quş uçuran və ya bu məqsədləri güdən quş uçurana müraciət edən, fala baxan və baxdıran, sehr etməklə məşğul olan və ya ona sehrbazlıq tələbi ilə müraciət edən şəxs və saplardan [cadugər] düyünü bağlayan bizdən deyil. Kim falçıya gedib onun dediklərinə inanarsa, o, Muhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil olana küfr etmiş olar."

[Həsən] [Əl-Bəzzar rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) ümmətindən olan insanların bəzi əməllərinə görə: "o, bizdən deyil" sözləri ilə, onlara xəbərdarlıq etmişdir. Həmin əməllərdən bəziləri: Birincisi: "Uğursuzluğa inanıb quş uçurmaq və ya onun üçün quş uçurulması". Məsələnin əsli: səyahət, ticarət və ya başqa bir işə başlayarkən quşu uçurmaqdır. Əgər quş sağa uçarsa, həmin adam nikbin olar və istədiyini etməyə gedər, yox sola uçarsa o bədbin olar və istədiyindən əl çəkər. Onun nə özünün bu əməli görməsi, nə də başqasına həvalə etməsi caiz deyildir. Sözügedən bədbinliyə istər eşidilən əlamətlər, istərsə də gözlə görülən əlamətlər daxildir - quşlar, heyvanlar, əlilliyi olan insanlar, rəqəmlər, günlər və ya başqa əlamətlərə - aid ola bilər. İkincisi: "Kim kahinliklə məşğul olarsa və ya kahindən fala baxmağı tələb edərsə". Beləliklə, kim ulduzlardan və başqa şeylərdən istifadə edərək qeybi bildiyini iddia edərsə və ya qeyb elmini iddia edən kahinə və ya oxşar insanlara gedib qeyb elminə malik olması iddialarına inanarsa, Muhəmmədə (Allahın salavatı və salamı onun üzərinə olsun) nazil olanı inkar etmiş olar. Üçüncüsü: "Sehr edən və ya özü üçün sehr etdirən", yəni kiməsə fayda və ya ziyan vurmaq, yaxud iplə düyün vurmaq və üzərinə haram sehrli sözlər oxuyub üfürməklə sehr edən və ya öz mənafeyini güdərək kiməsə cadu, sehr edilməsini tələb edən kəsdir.

http://www.sunnah.global/hadeeth/az/show/5981